# Bakıda bal yarmarkası açılıb



***❒ Sentyabrın 28-də Kənd Təsərrüfatı Nazirliyinin tabeliyindəki "Aqrar Tədarük və Təchizat" ASC-nin və Azərbaycan Arıçılar Assosiasiyasının birgə təşkilatçılığı ilə Tofiq Bəhramov adına Respublika Stadionunun ərazisində arıçılıq məhsullarının 20-ci respublika sərgi-satış yarmarkası açılıb.***

Açılış mərasimində çıxış edən kənd təsərrüfatı nazirinin müavini Seyfəddin Talıbov arıçılığın Azərbaycanda çox qədim peşə sahələrindən biri olduğunu və aqrar sektorun inkişafında xüsusi yer tutduğunu vurğulayıb. Qeyd edib ki, bu sahənin inkişafı ilə həm aqrar sektorda məşğulluğa, həm də ixraca mühüm töhfə verə bilərik.

Nazir müavini diqqətə çatdırıb k, son 2 ildə arıçılıq sahəsində bütövlükdə arı ailələrinin sayı təqribən iki dəfə artıb. Dövlət dəstəyi tədbirləri nəticəsində arı ailələrinin sayı təqribən 270 min ədəd təşkil edirdisə, ötən il bu göstərici 503 minə çatıb. Bu, çox ciddi artımdır.

Faktlara müraciət edən S.Talıbov deyib ki, əgər ötən illərdə təqribən 5-6 ton balın Yaponiyaya ixracını ciddi bir fakt kimi qeyd edirdiksə, artıq bu rəqəm 8 tondan çoxdur. Həmçinin ixrac coğrafiyası da önəmli şəkildə genişlənməkdədir. Artıq respublikamızın bal məhsulları təkcə yaxın qonşu ölkələrə və Yaponiyaya deyil, eyni zamanda, Körfəz ölkələrinə də ixrac olunur. Nazirlik rəsmisi bu coğrafiyanı daha da genişləndirməyin mümkünlüyünü bildirib: "Bunun üçün Kənd Təsərrüfatı Nazirliyi, Arıçılıq Assosiasiyası və arıçılar bu sahədə birgə məqsədyönlü tədbirlər həyata keçirməlidirlər. Əvvəlcə biz marketinq məsələlərini həll etməliyik. Yəni arıçılıq məhsulları müasir tələblərə uyğun qablaşdırılmalı və daşınması həyata keçirilməlidir".

Nərimanov Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Şahmar İbadov son illər Prezident İlham Əliyev tərəfindən aqrar sahədə uğurla həyata keçirilən aqrar islahatlardan söz açaraq, bu sahənin prioritet olduğunu diqqətə çatdırıb.

Bildirib ki, Bakı şəhərinin bir neçə ünvanında kənd təsərrüfatı məhsullarının satış-yarmarkası təşkil olunur. Onlardan biri də Nərimanov rayonundadır. Belə yarmarkalarda kənd məhsulları istehsalçıdan birbaşa istehlakçıya çatdırılır ki, bu, həm də bazarlarda qiymət artımının qarşısının alınmasına xidmət edir.

Bal yarmarkası üçün belə bir əlverişli yerin seçilməsinin təsadüfi olmadığını deyən Ş.İbadov arıçıların öz keyfiyyətli məhsullarını istehlakçıya çatdırması üçün bütün lazımi şəraitin yaradıldığını vurğulayıb.

Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin baytarlıq nəzarət şöbəsinin müdiri Qalib Əbdüləliyev yarmarkada satılan məhsullara ciddi qida təhlükəsizliyi nəzarətinin təmin edildiyini nəzərə çatdırıb: "Bu işlər davam edəcək. Yarmarkaya təqdim edilmiş bütün məhsullar xüsusi anbara toplanır. Həmin anbarda hər bir arıçının ayrı-ayrı qablardakı məhsulu kodlaşdırılır və bundan sonra Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun kompleks tədqiqatlar laboratoriyasının əməkdaşları kodlaşdırılmış məhsullardan nümunə götürür. Məhsullar kodlaşdırılmış halda laboratoriyaya daxil olur və burada müvafiq təbii balın standartlarına uyğun analizlər aparılır".

Azərbaycan Arıçılar Assosiasiyasının sədri Bədrəddin Həsrətov yarmarkada artıq 20-ci dəfə iştirak etdiyini deyib və burada arıçılar üçün gözəl şərait yaradıldığına diqqət çəkib.

Onun sözlərinə görə, arıçıların bu sahədəki bilik və bacarıqlarının ilbəil artması müşahidə olunur: "2020-ci ildə Azərbaycan arıçılarının dünya arıçılar ailəsinə qoşulacağı gözlənilir. Onu da deyim ki, hər arı ailəsinə dövlət tərəfindən 10 manat subsidiya verilib. Bununla arıçılar ailəsinə ümumilikdə təxminən 5 milyon manat daxil olub. Azərbaycanın arıçılıq məhsullarını dünyaya tanıtdırmaq üçün bizdə bütün imkanlar var".

Sonda "Aqrar Tədarük və Təchizat" ASC-nin İdarə Heyətinin sədri Leyla Məmmədova yarmarkanın təşkilində dəstək göstərən təşkilat və qurumlara öz minnətdarlığını ifadə edib.

Ümumilikdə, qeydiyyatı təsdiqlənmiş 347 arıçıdan 321 nəfəri məhsullarını "Aqrar Tədarük və Təchizat" ASC-nin Xocahəsən yolu 57 (Meyvəli bazarı) ünvanında yerləşən anbarına təhvil verib. 25 nəfər isə qeydiyyatı təsdiqlənməsinə baxmayaraq, yarmarkada iştirak üçün məhsullarını təqdim etməyib. Anbara təhvil verilən balın ümumi həcmi 123 ton olub. Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşları tərəfindən yarmarkada satışa çıxarılan məhsullardan nümunələr götürülərək laboratoriya şəraitində yoxlanılıb. Ümumilikdə, 3241 nümunə götürülüb ki, onların da 562-si, yəni 17,34 faizi keyfiyyət və qida təhlükəsizliyi göstəricilərinə uyğun hesab edilməyib. Göstəriciləri keyfiyyət və qida təhlükəsizliyi standartlarına uyğun olmayan məhsullar satışa buraxılmayıb və yarmarkanın sonuna qədər "Aqrar Tədarük və Təchizat" ASC-nin anbarında karantin şəraitində saxlanılacaq.

Builki yarmarka innovativ yenilikləri ilə ötən ilkilərdən fərqlənir. İlk dəfə olaraq bu il yarmarkaya qeydiyyat onlayn şəkildə www.bal.kendden.az saytı vasitəsi ilə həyata keçirilib. Yarmarka ərazisinin zonalara və sektorlara bölünməsi, həmçinin arıçıların yer bölgüsü püşkatma vasitəsilə müəyyən edilib. Eyni zamanda, arıçılar iştirak üçün tələb olunan ödənişi bank vasitəsilə həyata keçirib.



Bu il tətbiq edilən növbəti yenilik isə satışına icazə veriləcək hər bir məhsulun qablaşmasının üzərində ştrix-kodun olmasıdır. Bu kod vasitəsi ilə müştərilər www.bal.kendden.az saytına daxil olaraq məhsulun hansı rayondan gətirildiyini və kim tərəfindən satışa çıxarıldığını öyrənə bilərlər.

Paytaxt sakinlərinin rahatlığını yüksək səviyyədə təmin etmək məqsədi ilə yarmarka günlərində onlayn sifariş xidməti də istifadəyə veriləcək. Vətəndaşlar www.bal.kendden.az saytına daxil olaraq iştirakçılar üçün yaradılmış profillərdən istifadə etməklə məhsul sifariş edə biləcəklər. Sifariş olunan məhsullar metronun "Gənclik" və "Nəriman Nərimanov" stansiyaları yaxınlığına ödənişsiz, digər ərazilərə isə ödənişli şəkildə çatdırılacaq.

Vətəndaşlar 28 sentyabr-18 oktyabr tarixlərində hər gün saat 8:00-dan 20:00-dək bal yarmarkasına gələ, keyfiyyətli və qida təhlükəsizliyi göstəriciləri uyğun olan bal və arıçılıq məhsulları əldə edə bilərlər.

Həmçinin vətəndaşların marağının artırılması məqsədilə yarmarkanın açılış günü, eləcə də qeyd edilən tarixlərə düşən şənbə və bazar günləri müxtəlif əyləncəli proqramlar və konsertlər olacaq, yarmarkanın keçirildiyi müddətdə arıçılıq məhsullarının dequstasiyası da təşkil ediləcək.

***AZƏRTAC***

Xalq qəzeti .- 2019.- 29 sentyabr.- S.6.